“Cavid dedi ki, mən dəvət olunmamış yerə heç vaxt getmərəm...”

Qorki gələndə elə bil onları qılıncla iki yerə böldülər

Azərbaycan Yazıçılar Birliyinin yaranmasından 90 il ötür. Bu günlərdə yubiley tədbirlərinə hazırlaşan Birlik sədri, Xalq yazıçısı Anar “Qobustan” dərgisinin AYB-90 özəl sayına, baş redaktor Pərvinə video-müsahibə verib. Söhbəti təqdim edirik.

- “Qobustan” dərgisinin Yay sayı Azərbaycan Yazıçılar Birliyinin 90 illik yubileyinə həsr olunub. Və elə bu yubiley ərəfəsində sayımızı çapa hazırlayanda anladıq ki, bu 90 illik tarixin böyük bir hissəsi Azərbaycanın Xalq yazıçısı Anarın taleyindən keçib. Ona görə xahiş etdik ki, bu dəfə “Baş redaktor təqdim edir” rubrikasında Anar müəllim 90 illiklə bağlı düşüncələrini bölüşsün.

Anar müəllim, doğulandan bu mühitin içərisindəsiniz. Ümumiyyətlə, Yazıçılar Birliyinin yaranmasını və bunun təkcə siyasi və ideoloji tərəflərini yox, həm də yaradıcı tərəflərini necə dəyərləndirərdiniz?

- Bilirsiniz, bu yazıçılıq peşəsi, o biri sənətlərdən fərqli olaraq tənhalıq peşəsidir. Tutalım, musiqiçilər orkestrlə işləyirlər, kinoya aktyorlar birlikdə çəkilirlər, tamaşada birgə iştirak edirlər. Yazıçı isə evdə tək oturub əsərini yazır. Ona görə yazıçılarda öz işdaşlarıyla, kolleqalarıyla görüşmək, bölüşmək, ünsiyyətdə olmaq ehtiyacı daha çoxdur. Və yəqin elə buna görə də yazıçılar hələ qədim dövrlərdən müxtəlif şəkillərdə birliklər, məclislər təşkil edirdilər. Bilirsən ki, 19-cu əsrdə Natəvanın, Nəvvabın, Seyid Əzim Şirvaninin və başqalarının ədəbi məclisləri olub, XX əsrdə isə yazıçılar, Azərbaycan Xalq Cümhuriyyəti dövründə, “Yaşıl qələmlər” cəmiyyətini yaratdılar. Sonra sovet dövrü başlanıb və həmin dövrdə də “Qızıl qələm” fəaliyyətinə başlayıb. Nəhayət, 1934-cü ildə Yazıçılar İttifaqı yaradılıb. Yəni hər addımda, hər mərhələdə yazıçıların belə bir ədəbi ocağa ehtiyacı olub. Amma ən uzunömürlü təşkilat bizim Yazıçılar Birliyidir ki, onun 90 illiyini qeyd edirik. Təbii ki, söhbət məhz Azərbaycan Yazıçılar Birliyindən gedir. Yəni eyni ildə Sovet Yazıçılar Birliyi də yaranmışdı. Təbii ki, Sovet İttifaqı dağılanda o da dağıldı. Moskva və Rusiya yazıçıları neçə-neçə kiçik birliklərə bölündülər. Həm də onlar çox vaxt bir-birilə əmlak üstündə, nəşriyyatlar üstündə dava edirdilər. Bir çox respublikalarda ümumiyyətlə Yazıçılar Birliyi ləğv olundu, dağıldıldı. Bizdə isə xoşbəxtlikdən bu birlik qaldı, saxlanıldı. İndi Yazıçılar Birliyinin özü də, ədəbi orqanları da fəaliyyət göstərir. Hətta ədəbi orqanların sayı da artıb. Məsələn, o dövrdə “Qobustan” jurnalı, eləcə də “Ədəbiyyat qəzeti” Mədəniyyət Nazirliyi ilə Yazıçılar Birliyinin ortaq nəşri idi, keçdilər Yazıçılar Birliyinə. Sonralar “Mir literatura” qəzetini buraxdıq.

- AYB-dən öncə Azərbaycan Proletar Yazıçılar Assosiasiyası yaradılmışdı, onların tarixçəsini bir az araşdıranda, çox maraqlı, hətta adamı təəccübləndirən faktlar ortaya çıxdı. Bu, çox nüfuzlu bir təşkilat idi və hətta özləri qurultay keçirirdilər, bu qurultayda öz nizamnamələri və istiqamətlərini müəyyənləşdirirdilər. Və bildiyim qədərilə Rəsul Rza o təşkilatın rəhbərlərindən biri olub.

- Bəli, katiblərindən, rəhbərlərindən biri olub. Atam danışırdı ki, “Azap” o zaman çox nüfuzlu bir təşkilat idi. Hətta deyirdi ki, məsələn, teatr tamaşalarında həmişə ictimai baxış olurdu və “Azap”ın nümayəndəsi gəlmədən pərdələri açmırdılar. Gözləyirdilər ki, “Azap”ın nümayəndəsi gəlsin, sonra açsınlar. Hər bir hərəkatda səhvlər olduğu kimi, “Azap”ın fəaliyyətində də çoxlu səhvlər olub. Amma müsbət cəhətlərindən biri odur ki, o vaxt Cəfər Cabbarlıya hücumlar olanda, “Azap”ın katibləri, atam, Mehdi Hüseyn onu müdafiə eləyiblər. “Azap”ın tarixində işıqlı səhifələr olduğu kimi, qaranlıq səhifələr də olub. Klassiklərə qarşı münasibətlərdə bəzən ifrata varıblar. Cəlil Məmmədquluzadəyə, Cavidə münasibətdə... Amma həyatdır da... Həyatda heç bir şey birtərəfli olmur.

- Çünki onların ideyaları bu idi - köhnəliyə qarşı çıxırdılar və bəzən də bu “köhnəlik” yanlış anlaşılırdı. Rusiyada da “Rapp” var idi, Moskvada yaratmışdılar, amma Leninqradda da onların kiçik bir təşkilatı var idi. Və 32-ci ildə, hələ Sovet Yazıçılar İttifaqı qurulmamışdan əvvəl müasir dillə desək - test rejimində Qorkinin fəxri sədr seçildiyi kiçik bir təşkilat yaratmışdılar və Stalin onların üzvləri ilə görüşəndə özü bunu irad tutmuşdu ki, siz özünüzdən olmayanları dışladınız, uzaq saldınız mühitdən, ona görə də daha ciddi bir təşkilat yaratmağa ehtiyac var. Bunu necə dəyərləndirirsiz? Bu bir idarəçilik üsulu idi, yoxsa, həqiqətən də, bunun ədəbiyyata faydası dəyəcəkdi?

- “Rapp”dan söz düşmüşkən, maraqlı bir əhvalatı danışım. Məlumdur ki, “Rapp”ın bir neçə rəhbəri var idi. Amma əsas rəhbərləri - Fadeyev və Averbax idi. Fadeyev də bilirsiniz ki, məşhur sovet yazıçısıdır, “Gənc qvardiya”nın, “Tarmar” əsərinin müəllifidir. Sonra o, uzun illər SSRİ Yazıçılar İttifaqının sədri olub. Averbax isə tənqidçi idi. Və bu ikisinin arasında ədəbiyyatla bağlı çox qızğın mübahisələr olub. Hətta bəzən iş o yerə gəlib çatırdı ki, onlar bir-birilə danışmırdılar, küsülü qalırdılar. Bunu Tendryakov adlı bir rus yazıçısı yazıb, mən də ona istinadən deyirəm. Bir dəfə Stalinlə bunlar görüşəndə, Stalin deyib ki, bəsdir küsülü qaldınız. Barışın! Fadeyev Averbaxa əlini uzadıb. Averbax isə ona əlini uzatmayıb. Stalin deyib ki, yoldaş Fadeyev, Averbax sizdən prinsipial adammış. O, sizinlə sona qədər mübahisə edir, amma siz ona güzəştə gedirsiz. İkisi də susurlar. Bir müddətdən sonra Averbaxı tutub güllələyirlər, Fadeyev isə sədr olur. Görünür, Stalinə elə adam lazımmış...

- Yəni asan idarə olunsun. Sonra bu Averbaxçılıq bir damğa kimi, ittiham kimi də qaldı.

- Bəli, averbaxçılığı trotskiçiliklə eyniləşdirdilər. Çünki Averbax da, Trotski də yəhudi idi. Doğrudur, yəhudiçilik damğası adı yox idi, amma məlum idi ki, Trotskist deyəndə, nəyi nəzərdə tuturlar. Averbaxı da Trotskiçi kimi ifşa elədilər, güllələdilər. Ümumiyyətlə, Moskvada nə olurdusa, əks-sədası bura da gəlirdi. O saat burda da başladılar Averbaxçılıqla mübarizə eləməyə, filan.

- Və axtarırdılar, köhnə “Azap”çıların içərisindən tapırdılar.

- Elədir, onların bəziləri etiraf edirdilər. O cümlədən, mənim atamın da etirafı var idi; “bəli, mənim də “Averbaxçı” səhvlərim olub”, filan. Amma o dövr hələ nisbətən yumşaq dövr idi. Repressiyalar 36-37-də başladı. Moskvada isə 35-36-da başlamışdı. 37-ci ildə ədəbiyyatın qaymaqları, böyük şəxsiyyətlər hamısı qurban getdilər Stalin rejiminin repressiya siyasətinə.

- Azərbaycan Yazıçılar Birliyinin sədrlərindən ikisi də repressiya qurbanı oldu...

- Bəli, birinci sədr Məmmədkazım Ələkbərli olub. Moskvada SSRİ yazıçılarının I qurultayında çıxış edib. Onun çıxışında mənim diqqətimi belə bir söz çəkdi. Doğrudur, sonralar mən neçə alimdən soruşdum, heç biri bunu təsdiq eləmədi. O, orda deyir ki, Harun Ər-Rəşidin arvadlarından biri Zibeydə xatun olub. Onun türkcə şeirləri var. Amma mən sonralar Həmid müəllimdən soruşdum, dedi yox, mən bilmirəm o hardan götürüb bunu. Ümumiyyətlə, orda o da, Cəfər Cabbarlı da çıxış edib.

- Bu onun proqram çıxışı idi. Prinsipial məsələləri demişdi orda...

- Elədir, Cabbarlının çıxışında belə bir fikri var idi ki, ədəbiyyat sifarişlə yarana bilməz. O vaxt üçün bu çox cəsarətli çıxış idi. Qurultayda Mikayıl Rəfili, Səməd Vurğun, Salman Mümtaz iştirak edib. Amma atam orda numayəndə olmayıb, eləcə də Cavid. O vaxt anam danışırdı ki, (o zaman anam cavan qız idi) Moskvada idim. Bilet almışdım ki, qurultaya gedim. Nümayəndə deyildim, amma qonaq bileti ilə gedirdim. Küçədə deyir, (Qori küçəsiydi o vaxt) Cavidə rast gəldim, görüşdük, mənimlə birlikdə gəldik o sütunlu salonun qabağına. Orda dedim ki, Cavid əfəndi, gəlin, keçək içəri. Dedi ki, qızım, mən dəvət olunmamış yerə heç vaxt getmərəm. Çıxıb getdi, mənsə, getdim ora. Anam danışırdı ki, adamlar orda toplaşmışdılar. Qorki gələndə elə bil onları qılıncla iki yerə böldülər. Adamlar iki sıraya bölündülər, Qorki gəlib onların arasından keçdi.

- Anar müəllim, nəylə bağlı idi Qorkinin nüfuzu? Onun həyatını, taleyini araşdıranda o fakt məni dəhşətə gətirdi ki, onun Avropada çox rahat, qlamur bir həyatı olub.

- Biz Kapriyə getdik, gördük onun evini. Adam istəyərdi elə özü orda qalsın.

- Bəli, kifayət qədər dəbdəbəli, gözəl, bamond həyatı olub.

- Stalin aldatdı onu. Dəvət elədi ki, gəl, burada sənə hər cür şərait yaradım, həm də yazıçı öz vətənində, öz mühitinin içində olmalıdı. Bunini də, Kuprini də çağırdı. Kuprin də, Qorki də gəldi, amma Bunin gəlmədi. Qorki gələndən az sonra artıq başa düşdü ki, səhv eləyib.

- Amma orda bir maraqlı fakt da odur ki, Yazıçılar Birliyinin 1934-cü ildə yaranmasının bir səbəbi də Qorkinin oğlunun dünyasını dəyişməyi idi. Hətta belə bir fikir də var ki, Stalin üçün o qədər prinsipial məsələ idi ki, Sovet Yazıçılar Birliyinin sədri Maksim Qorki olsun...

- Qorki o vaxt SSRİ ərazisində olan ən nüfuzlu yazıçı idi. Dünya şöhrətli yazıçı idi, bu faktdır. Bunu heç kim dana bilməz. Dünya onu tanıyırdı - Romen Rolan, Bernard Şou onu tanıyırdı, başqaları onu tanıyırdı... Bəlkə, Bunin gəlsəydi, o da sədr ola bilərdi. Amma Qorki daha çox kommunist partiyasına yaxın bir adam kimi, proletar yazıçısı kimi tanınırdı. Halbuki, o vaxtlar onun bolşeviklər haqqında çox tənqidi yazıları da var idi. Amma məsələ bunda deyil. O, Leninlə yaxın olub... Və Stalin ancaq onu görürdü ki, o, olmalıdı.

- Bir yazıçı əzabı da var idi onun...

- İndi onu bəyənmək də, bəyənməmək də olar. O vaxtkı kimi şişirdilmiş qiymət vermək lazım deyil, amma hər halda o, böyük yazıçıdır. Pyesləri də, hekayələri də maraqlıdır. Özü də vicdanlı adam idi. Əlbəttə, yazıçı idi, rus yazıçısı. Gəlib çox şeyi gördü və göz yummalı oldu. Ona görə, hətta belə bir versiya var ki, onu zəhərləyib öldürdülər.

- Qayıdıb gəlməsindən ötrü hər gün zəhmətkeşlərdən yüzlərlə məktub gedirmiş bu ölkəyə. Təbii ki, hökumətin, rejimin təşkil elədiyi məktublar idi.

- Adına şəhər də salmışdılar.

- O məşhur kadrlar var, onun qatarla gəlişi. Qatardan enməmiş zəhmətkeşlərin gəlib onu qarşılamağı, qabağına qaçmağı... Bəs Azərbaycanda belə bir adam, rejimin seçdiyi adam Səməd Vurğun hesab oluna bilərdimi?

- Yox, 1934-cü ildə Səməd Vurğun o şöhrətə sahib deyildi. Əgər olsaydı, o vaxt elə onu sədr seçərdilər. 34-cü ildə ora daha çox partiya nəzarəti lazım idi. Mirkazım Ələkbərli yazıçı deyildi, heç tənqidçi də deyildi. Düzdür, tənqidi məqalələri var idi, amma əsasən, marksist filosof idi. Onu təyin elədilər. Amma az sonra, repressiya başlayanda günahları onun boynuna qoydular. Ondan sonra Seyfulla Şamilov oldu. O da repressiya qurbanı oldu. Amma o, qayıtdı xoşbəxtlikdən. Bunu sən də bilirsən, yəqin. Mən Yazıçılar Birliyinə gələndə onun oğluna - Elcan Şamilova, (rəhmətlik avtomobil qəzasında həlak oldu) sifariş verdim, o, 37-də qurban gedənlərə bir lövhə düzəltdi. Lövhəni Yazıçılar Birliyindən asmışıq. 37-ci ildə gedənlər, elə bil heçliyə gedirlər... Məncə, Sovet İttifaqının heç yerində belə bir lövhə yoxdur. Seyfulla Şamilovdan sonra, sədr qısa müddət Əli Məmmədov adında bir partiya işçisi oldu. O, heç Yazıçılar Birliyinin üzvü də deyildi. Yazıçı da deyildi. Amma partiya nəzarətçisi kimi göndərdilər. Ondan sonra isə atam olub Yazıçılar Birliyinin sədri, 1938-ci ildə.

- Bəli, həm də ən çətin zamanda. Siz neçənci ildə Yazıçılar Birliyinin üzvü oldunuz?

- Qoy yadıma salım, 1964-cü il idi, məncə. Mehdi Hüseynin vaxtında üzv olmuşam. Mənə zəmanəti o vaxt İsa Hüseynov, Sabit Rəhman və Yusif Səmədoğlu vermişdi.

- Məşhur çıxışınız var ki, mənim yer üzündə ən çox qorxduğum yer bu Natəvan klubudur. Nə idi ki, burda müşahidə elədiyiniz?

- Mən elə gənclikdən gedirdim ora. Görürdüm ki, yazıçılar bir-birinə nə cür insafsız, haqsız, kəskin sözlər deyirlər. Ona görə də məndə bir xof var idi. Əmim Ənvər Məmmədxanlı danışırdı ki, Soltan Məcid Qənizadəyə deyirmişlər ki, ver biletini. Yaşlı adam idi, rusca deyirdi ki, “mne Qorki eto podpisal”. Yəni, Qorki buna imza atıb... Deyirdilər ki, Qorki-zad tanımırıq, biletini ver bura. Biletini əlindən aldılar. Bir azdan sonra da onu tutdular: 70-80 yaşında kişini. Yəni elə dəhşətli səhnələr də olub. İndi Yazıçılar Birliyini sevməyən adamlar deyirlər ki, ora qanlı binadı. Amma o hadisələrin heç biri bu binada olmayıb. Yazıçılar bura 39-cu ildə köçüblər. Onlar ayrı yerdə olub. Doğrudur, burda da çox mübahisəli iclaslar olub, bir-birlərinə, necə deyərlər, ağır sözlər deyiblər. Amma repressiyaya səbəb olan iclaslar bu binada keçirilməyib.

- Anar müəllim, sizin 1981-ci ildə, Yazıçılar Birliyinin qurultayında çıxışınız oldu. O məşhur çıxış və Heydər Əliyevlə polemika.

- Bu, IX qurultay idi. Onda mən heç idarə heyətinin üzvü də deyildim. Mən ancaq nümayəndə kimi iştirak edirdim qurultayda. Mən onda dedim ki, cavanların səhv etmək səlahiyyəti var. Heydər Əliyev dedi yox, vacib deyil ki, səhv eləsinlər. Dedim, siz dediniz ki, cavanlara qayğı ilə yanaşmaq lazımdı. Dedi ki, o düzdü, amma demək olmaz ki, siz mütləq səhv edə bilərsiniz. Soruşdu: - Razısız mənimlə? Dedim: - Razıyam. Bununla da qurtardı bu mübahisə.

- 1981-ci ildən artıq bu mövzu gedirdi, yəni gənclərlə yeniləşmə mövzusu. Yazıçılar Birliyinin idarə heyətində də bu yeniləşmə mövzusu var idi.

- O vaxt “Molla Nəsrəddin - 66”da bu haqda zarafatlar var idi. O zarafatlardan biri belə idi ki, Uşaq Muşaqov gözəl işçidir, işgüzar adamdır, amma bir nöqsanı var ki, cavandı. Bu haqlı tənqiddən sonra Uşaq Muşaqov 10 gün ərzində 10 il qocaldı. İndi yazsaydım, yazardım ki, filankəs yaxşı adamdı, yaxşı işçidi, amma bir nöqsanı var ki, qocadı. İndi deyirlər ki, qocalmısan, gərək gedib evdə oturasan.

- İndi siz danışdıqca mənim yadıma düşdü ki, Mikayıl Rəfili, Cəfər Cəfərov haqqında, eləcə də ayrı-ayrı yazılarınızda həmin o Natəvan klubunda və ümumiyyətlə Yazıçılar Birliyinin ətrafında gedən söz-söhbətləri də yazmısız.

- Elədir, Soltan Məcid Qənizadə haqqında mənə danışmışdılar, Ənvər danışmışdı. Amma Cəfər Cəfərova olan hücumlar, atama olan hücumlar... Bunlar hamısı mənim gözümün qabağında olan şeylərdi.

- Sizin üçün bütün bunlar sədr seçiləndə bir narahatlıq doğururdumu, işinizin ardıcıllığını, sonrasını necə düşünürdünüz?

- Mən düşünürdüm ki, burada bir barış yaratmalıyam. O vaxt yazıçılar öz aralarında bölünürdülər ki, bunlar sərbəstçilərdilər, bunlar nə bilim, hecaçılardılar, bunlar novatordular, bunlar ənənəçidilər, filan. Bunların arasında çoxlu mübahisələr olurdu. Sonra yerliçilik də var idi, bunu da gizlətməyək. Yazıçılar Birliyində bir qarabağlı, bakılı, qazaxlı qrupları vardı, nə bilim, daha nələr... Mən çalışdım ki, bunları aradan qaldırım. Müxtəlif ədəbi növlərdə yazan adamlar bir-birinə düşmən kimi yox, ədəbiyyatın müxtəlif yollarını inkişaf etdirən adamlar kimi bir araya gəlsinlər. İkinci də, yerliçilikdən əsər-əlamət qalmasın. Ondan başqa artıq müstəqillik dövründə, müstəqillik ərəfəsində təzə bir bölgü də başladı ki, bəs bunlar müxalifətdədi, bunlar iqtidarda. Mən heç bir müxalifətçini müxalifətdə olduğuna görə Yazıçılar İttifaqından uzaşqlaşdırmamışam. Əksinə, çalışmışam ki, onlar da Yazıçılar Birliyinə gəlsin. Çünki Yazıçılar Birliyində insanlar siyasi baxışlarına görə deyil, ədəbi yaradıcılıqlarına görə birləşirlər. Məhz buna görə də biz heç kəsi itirmədik: nə Ramiz Rövşəni itirdik, nə Musa Yaqubu, nə Sabir Rüstəmxanlını. Hələ Yusiflə Vaqifi demirəm. Onlar da əvvəldən müxalifətdə idilər, sonra getdikcə dəyişdilər. İndi mənə elə gəlir ki, bütün sağlam qüvvələr artıq Yazıçılar Birliyindədir. Mən demirəm ki, Yazıçılar Birliyindən kənarda olan adamlar qeyri-sağlamdır. Hər halda, sağlam qüvvələrin 90 faizi Yazıçılar Birliyindədir.

- Həm 87-ci ildə ilk dəfə sədr seçiləndə, həm də müstəqillik illərində, 91-ci ildə sizin bir proqram çıxışınız var idi, sonralar məqalə kimi də çap elətdirmişdiniz. Orada ədəbiyyata baxışınız, ümumiyyətlə “bu birlik necə var olmalıdır?” kimi planlarınız yer almışdı. Onların neçə faizinə nail ola bildiniz? Bu dediklərniz təbii ki, onların tərkibi idi. Amma başqa ideyalarınız da var idi.

- Onda bizim cəmisi 4 filialımız var idi, Azərbaycanın əhatə elədiyi filiallar. İndi isə onların sayı 11-dən çoxdur. Qeyd etdiyim kimi, jurnallar da artıbdır. Gənclər Şurasını yaratdıq, mükafatlar təsis elədik. Ən son ildə, sonuncu qurultayda dedim ki, mən axırıncı dəfədir seçilirəm. Doğrudan da, belədir ki, 2027-ci ildə növbəti qurultay olacaq, mən onda namizədliyimi verməyəcəm. Dedim ki, hələlik mən qalıram. Bu müddətdə üç mühüm iş var ki, mən onları tamamlamaq istəyirəm. Birincisi, Şabranda yaradıcılıq evinin tikilməsiydi. Çünki onun yaradılmasının təşəbbüskarlarından biri də mən idim. İkincisi, yazıçılar üçün ev tikilməyə başlanmışdı, o da tikildi. Üçüncüsü, mən Yazıçılar Birliyinə gələndə Şüvəlanda yaradıcılıq evi fəaliyyət göstərirdi. Sonra elə oldu ki, Qara Yanvar hadisələri baş verdi, sovet əsgərləri orda yerləşdi, sonra məcburi köçkünləri biz özümüz orda yerləşdirdik... Bir də oranı bərpa etmək məsələsi qalırdı. Təbii ki, bu üç məsələnin üçü də hörmətli Prezidentimizin dəstəyi ilə həyata keçdi. Mən ona müraciət elədim. Onun dəstəyi, qayğısı ilə bu işlər həllini tapdı. Amma hər halda mən istəyirdim ki, bu üç iş tamamlansın. İndi bunun ikisi tamamlanıb. Üçüncüsü də, bu il tamamlanacaq. Demək olar ki, mən boyun olduğum şeylərin hamısını etdim. Əlbəttə, bu işlər çətin idi. Çünki aralığa Qarabağ məsələsi düşdü. Uzun zaman Yazıçılar Birliyi siyasətlə məşğul olmalıydı. Mən siyasətçi deyiləm, amma siyasətlə məşğul olmalı oldu. Mən bura gələndə 87, 88, 89-cu illərdə, artıq partiyaya inam yoxuydu. Bizim dostumuz Fərhad, həmişə deyir ki, mən o zaman Yazıçılar Birliyinə gələndə görürdüm ki, hamı ora gəlir. Niyə Mərkəzi Komitəyə getmirdilər? Heç kəs artıq ora inanmırdı. O zaman Yazıçılar Birliyinə qaçqınlar-köçkünlər gəlirdi. Məişət məsələləri üçün, nə bilim, cürbəcür məsələlər üçün gəlirdilər. Biz bacardıqca kömək edirdik. Kiminsə işinə yarayırdıq, kiməsə maddi yardım göstərirdik, qaçqınları yerləşdirirdik. Yəni, bacardığımızı edirdik. Ondan başqa da, Qorbaçova dəfələrlə müraciətlərin çoxunu mən yazırdım. İki il mən Moskvada deputat oldum, üç dəfə Qorbaçovla, eləcə də Yeltsinlə, Yakovlevlə görüşdüm. Hamısına vəziyyəti başa salmağa çalışdım. Tək mən yox, təbii ki... O vaxt bizim ən aktiv deputatlarımız Tofiq İsmayılov, Vəli Məmmədov, Arif Məlikov idi. Təəssüf ki, indi onların hamısı rəhmətə gedib. Amma onların sırasında mənim də fəaliyyətim olub. Çünki o biri deputatlar cavan qızlar idi, heç rus dilini də bilmirdilər. Qarabağ adını eşidən kimi deyirdilər, gedin, Anar müəllimə deyin. Gör, hələ bunlar nə deyirdilər?.. Biri gəlib deyirdi ki, erməni deputatlarının ağzını bağlamışam. Elə deputatlarımız da vardı bizim.

“Ədəbiyyat qəzeti”

davamı növbəti sayımızda